BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2015*

**UOT 341:339.9**

# İSLAM MALİYYƏ SİSTEMİNDƏ BANKÇILIQ

**L.R.FƏRZƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***f.lala2009@gmail.com***

*Məqalədə Azərbaycanda islam bankçılığının inkişaf etdirilməsi üçün müvafiq addımlar atılmasından və ölkəmizdə fəaliyyət göstərən bir çox banklar və kredit təşkilatlarının bu sahəyə xüsusi maraq göstərməsindən bəhs edilir. Bu sahənin inkişafı üçün bank sahəsində mövcud qanunvericiliyimizə əlavə və dəyişikliklərin edilməsinin labüdlüyündən, eləcə də bu sahə üzrə ekspert olmaq üçün bank sahəsini yaxşı bilməklə yanaşı, İslam Bankçılığı üzrə xüsusi təhsil almağın vacibliyindən, həmin sahə üzrə Azərbaycanın elm-tədris ocaqlarının açılmasına ehtiyacın olmasından söhbət açılır.*

**Açar sözlər:** islam maliyyə sistemi, faizsiz maliyyə institutları, bank sektorunda islam pəncərəsi

Faizsiz bankların digər ənənəvi banklardan fərqi onların əməliyyatlarında faizlərin tətbiq edilməməsindədir. Burada bir məqamı da qeyd etmək yerinə düşər. Bəzən faizsiz bankçılıq və islam bankçılığı dedikdə, çox kütlə bunu eyniləşdirir. Lakin bunlar arasında fərq vardır. Faizsiz bank – bank əməliyyatlarını faizsiz həyata keçirir. İslami banklar isə, islam prinsipləri çərçivəsində bank əməliyyatlarını həyata keçirən banklara deyilir. Hər hansı bir “X” commersiya bankı faizsiz fəaliyyət göstərən bir filial aça bilər və əgər istəsə cəlb etdiyi vəsaitlə donuzçuluq ferması yarada bilər. Amma İslami banklar bunu edə bilməzlər [13]. Faiz almaq və vermək də müsəlman qaydalarına zidd olan bir prosesdir.

**Faiz (riba)** heç bir əmək sərf etmədən, borc pulun müəyyən olunmuş müddətdə əsas sərmayə də daxil olmaqla razılaşdırılmış nisbətdə müəyyən vaxtda əlavə qazanc əldə etmək məqsədilə alınan pulun məbləğidir [3, 9]. Riba ərəb kökənli söz olub, mənası artma, çoxalma, şişmə deməkdir. İngiliscə isə bunun qarşılığı “**usury**”-dır. Bəzi iqtisadçılar faizi haqq edilməmiş qazanc da adlandırırlar. Bəzən faizə olan bu cür münasibətin ancaq İslam dinində bəslənildiyi bilinir. Amma tarixə nəzər salsaq, görərik ki, heç də İslam dinində deyil, hətta İslamiyyətdən əvvəl də faizə mənfi münasibətlər olmuşdur. Sələmçiliyə olan bu cür münasibət bəsləyənlərdən biri də Aristotel idi. O, faizi

“yumurta verməyən toyuğa” bənzətmişdir. Onun “Siyasət” adlı kitabında faizə olan münasibəti belədir: “Ən çox iyrənməyi haqq edən faizçilikdir: çünki bundan əldə olunan qazanc, birbaşa pulun öz varlığından irəli gəlir və pulun doğuşuna yol açmış olan səbəbə ziddir. Çünki pul mübadilə üçün yaradılmışdır, halbuki faiz pulun miqdarını çoxaldır və beləliklə də, təbiətə ən zidd olan pul qazanma tərzidir”.

XX əsrin ortalarını faizsiz bankçılığın çiçəklənmə dövrü kimi qələmə vermək olar. Çünki məhz elə bu vaxtlarda müasir sistemlə işləyən faizsiz bankçılığın nəzəri bilikləri formalaşdırıldı və daha sonra isə ilk faizsiz bankçılıq yaradıldı. Ümumiyyətlə, orta əsrlərdən müəsəlman ölkələrində pul-kredit münasibətləri şəriət qanunlarına görə tənzimlənmişdir. Lakin daha sonralar dünyada kapitalist sistemi meydana gəldi, sivil bazarlar formalaşdı bu da öz növbəsində İslam maliyyə sisteminin inkişaf etməsi üçün səbəb oldu. Misirdə, Türkiyə və digər müsəlman ölkələrində kapitalist iqtisadiyyatına olan meylin artması borc kapitalına da ehtiyacı artırdı. Ancaq faiz haram olduğuna görə alternativ mənbələrin araşdırılmasına ehtiyac duyulurdu. Bir sıra islam alimləri faizin haram olmasına geniş baxışlarala yanaşmağı təklif etdilər. İlk dəfə olaraq Misir müftisi M.Əbdo pulun banka yığılmasını və oradan da mənfəət kimi pay alınmasını təklif etdi. Bu fikir isə birmənalı qarşılandı. Daha sonralar Malayziya və Pakistanda (1940-50-ci illərdə) faizsiz bank qurmağa cəhd edildi, lakin müvəffəq olunmadı.

Faizin islam dininə görə haram hesab olunması, digər tərəfdən faizli banklarda alternativ quruluşların mövcud olmaması müsəlman xalqın əmanətlərinin bankdan xaric yollarla valyutaya, qızıla, ya da daşınmaz əmlaka qoyulması ilə, bir nov hərəkətsiz qalmasına səbəb olmuşdur. Bu vəziyyət xalqın əlində ölkənin dirçəlməsini təmin edəcək sərmayənin olmasına baxmayaraq, dövlətin sərmayə ehtiyaclarını xarici borclar hesabına ödəməsinə və iqtisadi baxımdan xaricdən asılı olması vəziyyətinə gətirib çıxarmışdır. Məhz belə bir vəziyyətdə İslami prinsiplərə bağlı olaraq işləyən iştirakçı banklar xalqın əlindəki əmanətləri iqtisadiyyat içərisinə cəlb etməyi bacarmış və ölkələrin dirçəlməsi üçün ehtiyac duyulan sərmayəni xaricdən təmin edilməsi zəruriliyini böyük ölçüdə azaltmışdır.

Bir maliyyə müəssisəsi olaraq faizsiz bankçılığın dünyada ilk tətbiqi Misir Ərəb Respublikasındakı Mit Gamr qəsəbəsində baş vermişdir. Dövlətin keçmiş başçısı Cəmal Əbdül Nasirin dövründə bütün bankların milliləşdirilməsinə qarşı olaraq alternativ variant kimi inkişaf etdirilən bir sınaq nəticəsində meydana gəlmişdir [9, 231]. Misir kəndlisinin əkinçilik və ticarət ehtiyaclarını qarşılayan və bunu edərkən “birgə zəmanət” fəlsəfəsinə əsaslanan daha çox risk sərmayəsi ilə pul Fondu qarışığı kimi xüsusi bir modeldə fəaliyyət göstərən bu quruluşa bank simasının verilməsi bu gün elmi bir müzakirə mövzusu olmaqdadır. Model, həm bank, həm ticarət ortaqlığı (mənfəət və zərər ortaqlığı), həm sığorta həm əmtəə mübadiləs (barter), icarə (leasing), faktorinq (factoring) və bu kimi alt maliyyə metodlarını bir arada və eyni dam altında, eyni

zamanda həyata keçirmiş özünə xas bir modeldir [11, 78].

Kənd Sandığı anlayışına yaxın bir metodla fəaliyyət göstərdiyi bilinən bu bankların fikir atası Dr. Əhməd Əl-Naggardır. Eyni zamanda bankın səhmdarı və ilk inzibati personalı arasında olan müzakirə məsələsi Misirli keçmış Xarici İşlər Nazirliyi məmurunun iqtisadi keçmişi araşdırıldığında, Alman iqtisadiyyat tarixində (Prusya dövründə) görülən "ictimai inkişaf bankacılığına" bənzər prinsiplərdən təsirlənmiş olduğu və bunu, dövründəki və coğrafiyasındakı İslami iqtisadi və mədəni elementlərlə birləşdirməyə çalışdığı diqqəti çəkən məqamlardandır [7, 93].

Digər tərəfdən, ingilis hakimiyyəti dövründəki Hindistanın müsəlman bölgələrində görülən bəzi kooperativ bank tətbiqlərinin də dünyadakı ilk faizsiz maliyyə nümunələri kimi qəbul edilir.

Fərdi tətbiq etmə şəklində bir çox müsəlman cəmiyyətində əsrin əvvəllərindən etibarən meydana gəlməyə başlayan bu hərəkətin şüurlu, mütəşəkkil və müasir metodlarla həyata keçirilməsi fikri ilk dəfə Səudiyyə kralı Faysal dövründə ortaya çıxmışdır.

İnkişaf prosesinin başındakı bütün ölkələrin özünə yönələn tələblərini qarşılamaqda çətinlik çəkən Amerika Birləşmiş Ştatları bu inkişafın İslam ölkələri arasında bir an əvvəl təşkilatlanaraq böyük diametrli bir avto-maliyyə mənbəyi meydana gətirməsinə üstünlük vermiş və Dünya Bankı modelində çalışacaq bir neçə böyük regional bank qurduraraq bu yükün paylaşılmasına təşəbbüskar olmuşdur. Bu məqsədlə Asiya və Afrika inkişaf banklarının quruluşuna paralel olaraq Ciddədə yaradılan (1975) İslam İnkişaf Bankının (İKB) həqiqətən də İslam ölkələrindəki ictimai layihələrə etdiyi maliyyə yardımları çox əhəmiyyətli ölçüdə olmuş, lakin bütün ehtiyacları ödəməkdə kifayət etməmişdir.

Xüsusi sektor layihələrinə maliyyə yatıra bilməyən İKB-nın buraxdığı boşluğu doldurmaq üçün bəzi Səudiyyə, Kuveyt, Birləşmiş Ərəb Əmirliyi kimi ölkələrdən olan zəngin Müsəlmanların təşkilatlanmaları nəticəsində 1981-ci ildə yaranan "Dar Al-Maal Al-İslami" adlı holding, neft zənginliyini öz ölkəsinə cəlb etməyə çalışan İsveçrənin Cenevrə şəhərində təsis edilərək fəaliyyət göstərməyə başlamışdır.

Bunun verdiyi cəsarət sayəsində və yeni texnologiya (know-how) təcrübəsi nəticəsində "Dallah Baraka Qrupu" və digər bəzi qruplaşmalar vasitəsilə Orta şərqdəki müsəlman ölkələrdə faizsiz maliyyə sistemi sürətlə yayılmağa başladı. Uzaq şərqdəki ölkələrin idarəçiliyində söz sahibi olan zəngin müsəlmanların qurduğu bank və maliyyə təşkilatları, Yapon mədəniyyəti və texnologiyasının imkanları ilə birləşərək bölgənin böyük bir iqtisadi sıçrayış etməsində lokomotiv rolunu oynadı.

Hələ də dünyada 135 təşkilat faizsiz maliyyə quruluşu formasında fəaliyyət göstərməkdə və təxminən 150 milyard dollardan çox bir qaynağı idarə etməkdədir. Hər il nəşr olunan statistik məlumatlardan aydın olduğu kimi dünyada ən böyük 1000 bankdan 89-u hələ də İslam ölkələrində təsis olunmuş və

faizsiz sistemdə fəaliyyət göstərən maliyyə təşkilatlarıdır [5, 29].

Dünyanın ən böyük bankları bu sistemə böyük maraq göstərərək, bu inkişafın içində yer tutmağa çalışırlar. Bu maraq, həqiqətən, həmin sistemdə çalışan xüsusi banklar qurmaq və şöbələr açmaq şəklində olmaqla, bundan başqa mövcud olan faizsiz banklarla birgə bəzi layihələrə qoşulmaq metodu kimi də çıxış edir.

Faizsiz maliyyə sisteminə qərblilərin 20 il əvvəl yaraşdırdığı xüsusiyyət – İslam Bankaçılığıdır. Ancaq faizin haram buyrulması yalnız İslam dinində deyil bütün səmavi dinlərdə qəbul olunduğu üçün, əsl mədəniyyət elementlərinə getdikcə daha çox maraq duyan və köklərindəki dəyərləri kəşf edən bütün cəmiyyətlərdə faizsiz bankçılıq anlayışı xüsusi və nüfuzlu bir yer qazanmaqdadır.

Qurucusu Şahzadə Məhəmməd Al Faisal olan və mərkəzi Səudiyyə Ərəbistanında yerləşən Dünya İslam Banklar Birliyinin ən nəzərə çarpan fəaliyyəti, şərti (klassik faizli) bank standartlarını və faizsiz maliyyə sistemini qarşılıqlı olaraq bir-birinə adaptasiya edərək iki sistem arasındakı dil birliyini inkişaf etdirmək məqsədi daşıyır.

Hal-hazırda dünyada üç mühüm faizsiz bankçılıq mərkəzi mövcuddur [4].

1. ***Malayziya - Kualalumpur:*** Adi hər bir məhsula alternativ məhsulun hazırlandığı və 10%-dən artıq bir bazara sahib olan ölkə formasında, yenilikçi xüsusiyyətləri səbəbilə hər yeni faizsiz məhsulda önə çəkilməkdədir.

2. ***Bəhreyn:*** Faizsiz qurumlar və bankların faizsiz pəncərələrinin sıx olaraq iştirak etdiyi bir ölkə, təşkilati bank ağırlıqlı bir mərkəz olmuşdur.

3. ***London:*** Yenə pəncərələr və investisiya yatırımları sahəsində ənənəvi və faizsiz bank keçidinin, körpüsünün qurulduğu bir mərkəz sayıla bilər.

Cədvəl 1

**İştirakçı bankların bank sektorundakı yeri [5, 30].**




GCF (Gulf Cooperation Council): Körfəz Əməkdaşlıq Şurası; Bəhreyn, Oman, Qatar, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərindən ibarətdir.

**İslam ölkələrində bankçılıq.**

İslam banklarını məlum şərtilik dərəcəsi ilə aşağıdakı kimi fərqləndirirlər:

-bütün bank sisteminin islam prinsiplərinə əsaslandığı və dini orqanların

nəzarəti altında fəaliyyət göstərdiyi ölkələrdəki islam bankları;

-adi bankların da rəqabət əsasında işlədiyi Misir və İordaniya kimi ölkələrdə fəaliyyətdə olan islam bankları;

-pul-kredit orqanlarının islam normalarına tabe edilmədiyi qeyri-müsəlman ölkələrində (Böyük Britaniya, CAR) fəaliyyət göstərən islam bankları;

-İslam İnkişaf Bankları [2, 131].

***a) Səudiyyə Ərəbistanı.*** Digər ölkələrdən fərqli olaraq Səudiyyə Ərəbistanındakı üləmanın faiz mövzusundakı rəftarı son dərəcə qatı olduğu üçün, Səudiyyə Ərəbistanında faizə tamamilə icazə verilmir. Bunun müqabilində banklar, həyata keçirdikləri əməliyyatlardan komissiya ala bilirlər.

Səudiyyə Ərəbistanda faizlə bağli məsələlərə inzibati məhkəmələr tərəfindən baxılır və bu məhkəmələr maliyyə və ticarət məsələlərində faizə icazə verən hökm verə bilməzlər.

Müasir faizsiz bankçılığın vətəni Misir olmasına baxmayaraq, Səudiyyə Kral ailəsinin və mühüm iş adamlarının dəstəyi olmadan bu qədər inkişaf etməsi və real bir maliyyə güc sistemi olması mümkün olmaya bilərdi. Səudiyyə hökuməti 1975-ci ildə Ciddədəki İslam İnkişaf Bankının qurulmasına da rəhbərlik etmişdir. Bundan başqa, Dar Al-Maal Al Islami Group, Dallah Al Baraka Group və Al Rajhi Bankçılıq və İnvestisiya Şirkəti bu sahədə ən güclü və ən təsirli üç xüsusi maliyyə birliyidir [8, 25].

***b) İran və Pakistan.*** İran və Pakistandakı vəziyyət digər ölkələrlə müqayisədə daha fərqlidir. İranda 1980-ci il inqilabından sonra bankların faizlə işləməsinin dayandırılacağı elan edilmişdir [6, 25]. 30 Avqust 1980-ci il tarixində məclis faizsiz bankçılıq sisteminə keçilməsiylə əlaqədar layihəni müzakirə edərək qəbul etmiş və 1 sentyabr 1983-cü ildə həmin Qanun qüvvəyə minmişdir. Konstitusiyanın 4-cü maddəsində bütün qanuni qaydaların dini normalara əsaslanması qeyd olunur. 1983-cü ildə İran Parlamentinin çıxardığı Faizsiz Bankçılıq Aktı, bütün faizləri faizə əsaslanan bankçılığın bütün qollarını qadağan etmişdir. Beləcə, faizsiz bankçılıq İranda zəruri hala çevrilmişdir.

*Pakistan Konstitusiyası* - faiz ödəmə və təhsillə bağlı bütün qanunların dini qaydalara zidd olmamasını bəyan etdiyi üçün, 1981-ci ildə Pakistandakı bütün ticarət bankları, investorlara faizli əmanət yerinə, mənfəət/zərərə qoşulma hesabları açmışdılar.

Pakistanda faizə əsaslanan borcların yerini kapital investisiyalarına qoşulma sənədləri, faizin yerinə bankların məcburi olaraq həvalə etdikləri xidmət haqları və müəssisə ilə bank arasında edilən murabaha prosessindəki geri satın alma və qiymət yüksəltmə tutmuşdur. Ancaq bank ödənişləri və qiymət yüksəltmələri, müasir bankaçılıqdakı faiz miqdarı qədər olmuşdur.

***c) Sudan***. İslam bankçılığının inkişafı baxımından ilk fəaliyyət icazəsi verən ölkələrdən biridir. Sudanda ilk faizsiz bank 1977-ci ildə qurulan Sudan Faysal İslam Bankıdır. Sudanın digər mühüm faizsiz bankı isə, 1981-ci ildə qurulan Tadamon İslam Bankıdır. Bu bankın 20 milyon Sudan Lirası'ndan ibarət sərmayəsinin 70%-i yerli, 30%-i isə xarici iş adamları tərəfindən ödənmişdir.

Sudanda faizsiz bankçılıq sahəsində ən geniş inkişaf 1984-ci ildə baş vermişdir. Bu tarixdə bankçılığın faizsiz şəkildə işləməsi üçün geniş şəkildə fəaliyyət göstərilmiş və bu istiqamətdə tövsiyə xarakterli qərarlar qəbul olunmuşdur. Bu inkişaflar nəticəsində Sudanda faizsiz olaraq fəaliyyət göstərmək istəyən bankların sayı qısa zaman çərçivəsində artmışdır.

**Qarışıq maliyyə sistemli ölkələrdə bankçılıq.**

***a) Misir.*** Bir faizsiz maliyyə müəssisələri olaraq "faizsiz bankçılıq" ilk dəfə olaraq Misir Ərəb Respublikasındakı Mit Gamr qəsəbəsində tətbiq edilmişdir. İslam bankçılığının inkişafında Misirin xüsusi bir yeri vardır. Misirdə Sanhuri tərəfindən görülən işlərin nəticəsi olaraq, müəyyən bir nisbəti aşmamaq şərti ilə faizə icazə verilməklə yanaşı, faizsiz bankçılıq və ənənəvi bankçılıq bir arada icra edilir. Ənənəvi ticari faizli bank işinə bir alternativ olaraq inkişaf edən faizsiz bankçılıq Misirin maliyyə sistemində əhəmiyyətli rol oynamaqdadır. 1977-ci ildə Misir-Səudiyyə Ərəbistanı ortaqlığı ilə qurulan Misir Feysal Bankı və daha sonrakı illərdə bütünlüklə misirlilərə aid olan Beynəlxalq İnvestisiya Bankı, Misir bank sistemində əhəmiyyətli rol oynayan iki böyük faizsiz bank olaraq önə çıxır. Bu banklar, ümumi əmanətlərin 17%-ni əllərində cəmləşdirir [5, 33].

***b) Küveyt və digər körfəz ölkələr.*** Birləşmiş Ərəb Əmirlikləri Ticarət Qanunu, faizə bəzi məhdudiyyətlər qoyur. Birləşmiş Ərəb Əmirliklərində ticarət borclarından müəyyən bir nisbəti keçməyəcək şəkildə faiz alınır, ancaq qeyri-kommersiya borcları da Cinayət Məcəlləsinə görə cinayət əməli kimi qəbul edilir. Bənzər şəkildə Küveyt Konstitusiyasında edilən dəyişikliklə, 1980-ci ildə Ticarət Məcəlləsində də buna uyğun dəyişikliklər edilmişdir. Bu dəyişikliklər əsasən, ticarət əməliyyatlar üçün faiz alına biləcəyi müddəaların irəli sürüldüyü Küveytdə də Birləşmiş Ərəb Əmirliklərində olduğu kimi qeyri-kommersiya əməliyyatları zamanı faiz almaq qeyri-qanuni hesab edilməkdədir.

1987-ci ildə qurulan Küveyt Maliyyə Evi 1991-ci il Körfəz müharibəsindən əvvəl 4 milyard dollara yaxınlaşan büdcəsi ilə dünyanın ən böyük faizsiz maliyyə qurumu oldusa da, müharibə ona ağır bir zərbə vurmuşdur. Digər faizsiz maliyyə təşkilatlarının da fəaliyyət göstərdiyi Küveyt, bölgədə faizsiz bankçılığın ən çox inkişaf etdiyi ölkələrdən birinə çevrilmişdir. Digər tərəfdən, Birləşmiş Ərəb Əmirliklərində isə Dubay Bankı xaricində faizsiz bankçılıq edən bir bank yoxdur. Qatarda da bənzər şəkildə yalnız Qatar İslam Bankı faizsiz bankçılıq əməliyyatları həyata keçirir.

***c) Malayziya.*** Əksər əhalisi müsəlmanlardan ibarət dünyəvi bir ölkə Malayziya, faizə əsaslanan bank sistemi ilə yanaşı alternativ bir bank sistemi olaraq faizsiz bankçılıq sisteminə yer verməkdədir. Malayziya Mərkəzi Bankı, maliyyə sisteminin aşağı strukturunu inkişaf etdirərək, İran və Pakistanda qurulan sadə faizsiz bankçılıq sistemindən daha təsirli olmağı bacarmışdır. Ölkədə faizsiz sistemlə çalışan banklar ayrı bir qanuna və qaydalara tabe tutulmuşdur. İslami nəzarətedici tənzimlənmə; likviditlik, ehtiyat nisbəti, ticarət ödəmə sistemləri, bank qəbulları üçün ikinci bazarlar nəzərə alınaraq hazır-

lanmışdır və ölkədə fəaliyyət göstərən bütün İslam banklarının hüquq qaydalarına uyğunluğunu təmin etmək üçün bir mərkəzi şura yaradılmışdır. 1983-ci ildə qəbul olunan İslam Bankçılıq Qanununa əsasən Malayziya Mərkəzi Bankına faizsiz işləyən bankların lisenziyalaşdırılması və onlara nəzarət səlahiyyəti verilmişdir. Eyni ildə qəbul edilən Dövlət İnvestisiya Qanununa əsasən faiz daşımayan investisiya sertifikatları və qiymətli kağızların ixracına başlanılmışdır. Dövlət İnvestisiya sertifikatları faizsiz nağd aktivlər olaraq müəyyən edilmişdir.

Malayziyada faizsiz maliyyə institutlarının keçmişinə baxıldıqda, ilk olaraq 1983-ci ildə "Bank İslam Malaysia Berhad"ın yaranmasını görmək olur. Qısa müddətdə əhəmiyyətli bir böyümə göstərmişdir. Faizsiz bankçılığın uzun müddət mövcudluğunu davam etdirməsi üçün, daha çox təşkilat, daha çox müştəri və faizsiz bir pul bazarı yaradılması kimi hədəflərə çatması lazımdır. Bu istiqamətdə Malayziya 1994-ci ildə "Islamic Interbank Money Market" adıyla faizsiz bankçılıq üçün bir bazar meydana gəlməsinə təkan vermişdir. 1999-ci ildə isə, Bank "Muamalat Malasyia Berhad" adıyla ölkənin ikinci faizsiz bankı fəaliyyətə başlamışdır. Bu bankın quruluşundan sonra ölkədə ticarət bankları ilə, faizsiz bankçılıq edən banklar arasında məhsul və xidmətlərin ortaq istifadə və satışa çıxarılması arasında addımlar reallaşmışdır. Nəticədə, hazırkı vaxtda Malayziyada faizsiz bankçılıq edən iki bank mövcud ikən, ticari bank və digər maliyyə təşkilatlarının da faizsiz bankçılıq məhsullarını təqdim etdiyi müşahidə edilməkdədir [5, 35].

***d) İngiltərə.*** İngiltərədə 1997-ci ildən bəri AUB-UK Mənzil adı altında, faiz olmayan murabaha və icarə əsaslı kreditlər təqdim olunur. Lakin bu maliyyə üsullarında məhsulun iki dəfə mübadiləsi, İngiltərədə faizsiz mənzil krediti istifadəsində ikiqat vergitutmaya səbəb olmuşdur. İngiltərə Mərkəzi Bankı 2004-ci ildə etdiyi razılaşmalarla faizsiz mənzil kredilərindəki ikiqat vergitutmanı ortadan qaldırmışdır. Dini şərtlərə uyğun məhsullarla ənənəvi bankçılıq məhsulları arasındakı fərqin azaldılması İngiltərədə böyük ticarət banklarının bu sahəyə maraq göstərməsinə səbəb olmuşdur. Mərkəzi Bank 2003-ci ildə faizsiz mənzil maliyyələşdirilməsi (ipoteka) mövzusunda Barclays Bankın keçmiş CEO-su Andrew Buxtonun sədrliyi ilə bir işçi komitəsi təsis etmişdir. Bu qurum Maliyyə Nazirliyi, Maliyyə Xidmətlərinin idarə edilməsi, Kredit Təminatçıları Komissiyası, Ahli United Bank, HSBC və Barclays kimi bəzi bankların nümayəndələrindən, eləcə də, bununla yanaşı İngiltərə İslam Komissiyası ilə, İslam cəmiyyəti təmsilçilərindən yaradılmışdır. İngiltərədə tamamilə müstəqil və dini şərtlərə uyğun məhsullar təqdim edə bilən bir bank hələ yoxdur. Bununla bərabər, bu mövzuda ciddi inkişafların olduğu müşahidə edilir. 2002-ci ilin əvvəllərində "Islamic House of Britain" adıyla və İngiltərədə öz hesabına çalışan ilk faizsiz bank olmaq məqsədilə fəaliyyət göstərən Islamic Bank of Britain 2004-cü ilin avqustundan bəri xidmət edir. Islamic Bank of Britainin rəhbərliyi altında 5422 saylı Təsisatlar Vergisi Qanununun xərclər hissəsindəki 14-cü maddəsi "Xüsusi Maliyyə Təşkilatlarının tabe oldu-

ğu qanun” müddəalarından ibarətdir.

***e) Lüksemburq.*** Lüksemburq İslam Bankçılıq Sistemi (Lüksemburq Islamic Banking System İnternational Holding SA) 1978-ci ildə Lüksemburqda holding A.Ş. olaraq 3.624.800 dollar sərmayə ilə qurularaq, bir holding olaraq özü birbaşa maliyyələşmə ilə maraqlanmayıb, ümumiyyətlə, fond qəpiyi əksəriyyətinə sahib olduğu Vadez və Lixteynşeyndəki maliyyə qurumlarını maliyyələşdirir. Əsasən də, 55%-nə sahib olduğu "Ərəb İnvestorlar Şirkəti" (Arinco-Ərəb Investors Co.) 48 saatlıq müddətsiz kreditlər, 5 ilə qədər investisiya fürsətini hər cür valyuta ilə qiymətləndirən bir qurumdur [5, 36].

Lüksemburqda təsis olunan və faizsiz bankçılıq prinsipinə görə işləyən bu qurum, faizsiz əsaslarla çalışan ilk bankdır.

***f) Almaniya.*** Faizsiz mənfəəti seçənlərin təcrübələri ilə yanaşı Körfəz ölkələrindəki fondları cəlb etmək üçün, ABŞ-da da "Faizsiz Qazanc" nəzərdə tutan investisiya alətləri dövriyyə edilərkən; Almaniyada Dresdner Bank və Deutsche Bankın da "Faizsiz Çalışan Fondları" vardır. Bu fondların səhm investisiyaları da var [5, 37].

***g) Türkiyə.*** 1975-ci ildə İslam İnkişaf Bankının (İKB) qurucu üzvləri arasında iştirak edən Türkiyə hökuməti 1984-cü ildə sərmayə payını artıraraq bu quruluşun ən böyük ortaqlarından biri halına gəlmiş və İKB İdarə heyətində davamlı üzv saxlama haqqını əldə etmişdir.

Beləcə, Türkiyə 56 İslam ölkəsi arasında iqtisadi əməkdaşlıq proqramlarının həyata keçirilməsində, xarici ticarətin artımında, infrastruktur sərmayələrinin dəstəklənməsində, özəl sektorun təşviq edilməsində və müxtəlif maliyyə texnikalarının inkişaf etdirilməsində böyük rol oynayan, dünyanın öndə gedən maliyyə quruluşlarından biri olaraq bilinən İslam İnkişaf Bankı nəzdindəki fəaliyyətini artırmağa imkan əldə etmişdir. Bununla yanaşı, əmanətlərini faizsiz sistemə uyğun olaraq dəyərləndirmək istəyən vətəndaşlara, kiçik və orta ölçülü müəssisələrə xidmət vermək məqsədiylə 1975-ci ildə yaranan və bu istiqamətdəki işlərini 1978-ci ilə qədər davam etdirən Dövlət Sənaye İşçi İnvestisiya Bankının (DESİYAB) Türkiyəyə mühüm təcrübələr qazandırdığı qeyd olunur.

16 dekabr 1983-cü il tarixli 83/7506 saylı fərman ilə İştirakı Bankların təməli qoyulmuş [10, 37] və bu fərmana əsasən "Xüsusi Maliyyə Təşkilatı" adı ilə meydana gəlmişdir. O illərdə Türkiyə iqtisadiyyatında görülən liberallaşmanın təsiri ilə, faizdən uzaq duran mühafizəkar təbəqənin də əmanətlərini qiymətləndirə biləcəkləri yeni bir sistemin yaranması ortaya çıxmışdır. 1985-ci ildə ilk dəfə olaraq Albaraka Türk Özəl Maliyyə Təşkilatı A.Ş. ilə Faisal Maliyyə Təşkilatı A.Ş. fəaliyyətə başlamış, daha sonra 1989-ci ildə Küveyt Türk Vəqflər Maliyyə Təşkilatı A.Ş., 1991-ci ildə Anadolu Maliyyə Təşkilatı A.Ş., 1995-ci ildə İxlas Maliyyə Təşkilatı A.Ş. və 1996-ci ildə son olaraq Asiya Maliyyə Təşkilatı A.Ş. sektora daxil olmuşlar. Beləcə Türkiyədəki Faizsiz Bankçılıq Sisteminin əsas müəssisələri meydana gəlmişdir. Bunlardan ilk 3-ü, xarici kapitala əsaslanarkən, sonra yaradılanlar tamamilə yerli sərmayə hesabına qurulmuş şəkildə bazara daxil olmuşlar.

İştirakçı bankların hüquqi baxımdan aşağı strukturlarını gücləndirmək məqsədilə, 17 dekabr 1999-cu il tarixli, 4491 saylı Banklar haqqında Qanuna dəyişikliklər edilməsi ilə bağlı qərar qəbul olunmuş və bu 19 dekabr 1999-cu ildə qüvvəyə minmişdir. Bu tənzimləmə ilə həmin qurumların Türk maliyyə sisteminin ayrılmaz və tamamlayıcı bir hissəsi olduğu xüsusu vurğulanmışdır.

Ən böyük islamçı bank kimi İslam İnkişaf Bankı (İİB) çıxış edir. (İİB) bütün islam bankları üçün istiqamətverici rolunu oynayan beynəlxalq təşkilatdır. Eyni zamanda müsəlman ölkələrindən Qətərdə, İndoneziyada da böyük dövriyyəsi olan İslam bankçılığı var. 1983-cü ildə Türkiyədə ilk İslam bankının açılmasına icazə verilib. Malayziyadakı Berhad Bankı indi dünyada dördüncü ən böyük İslam maliyyə bank müəssisəsidir. İslam bankçılığının əsas iş prinsipi şəriət qaydalarına uyğun olaraq, faiz ödənişinə deyil, gəlir və xərclərin bölüşdürülməsi prinsipinə əsaslanır.

Beynəlxalq maliyyə institutu olan İslam İnkişaf Bankının (İİB) əsası 1973-cü ilin 7 dekabrında İslam Konfransı Təşkilatının (onu da qeyd etmək lazımdır ki, təşkilatın Xarici İşlər Nazirləri Şurasının 28-30 iyun 2011-ci il tarixində Qazaxıstanın Astana şəhərində keçirilmiş 38-ci sessiyanın iştirakçılarının qərarı ilə İslam Konfransı Təşkilatı İslam Əməkdaşlığı Təşkilatı (qısa adı İƏT) adlandırılmışdır) [1, 475]. 7 üzv ölkəsi (Səudiyyə Ərəbistanı, Küveyt, Liviya, Türkiyə, BƏƏ, İran, Misir) tərəfindən Ciddədə keçirilən İslam Dövlətlərinin Maliyyə Nazirlərinin Konfransında imzalanmış Niyyət Sazişi ilə qoyulmuşdur. Bank öz fəaliyyətinə 20 oktyabr 1975-ci ildən başlamışdır. Bank islam, şəriət qaydalarına riayət edən ölkələrə maliyyə yardımı göstərir. İslam Konfransı Təşkilatının üzvü olan ölkələr arasında ticarət əlaqələrinin genişləndirilməsi bankın strateji məqsədləri sırasına daxildir və bunun üçün hər formada maliyyə imkanlarını təmin edir. Mərkəzi Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşir. Bankın Prezidenti və İcraçı Direktorlar Şurasının Sədri Z.A. Dr. Əhməd Məhəmməd Əlidir. O, İslam İnkişaf Bankı (indiki İƏT-in) Direktorlar Şurasının iyunun 23-24-də Bakıda keçirilən 35-ci İllik Toplantısında bu quruma yeni prezidentin seçilməsi ilə bağlı üzv-dövlətlər arasında keçirilən səsvermə yolu ilə seçilmişdir. Bankda Azərbaycan tərəfdən müdir İqtisadi İnkişaf Naziri Şahin Mustafayev, alternativ müdir isə Maliyyə Naziri Samir Şərifovdur [12].

İslam İnkişaf Bankının BMT-nin Baş Assambleyasında müşahidəçi statusu vardır. Onun orqanı olan Beynəlxalq İslam Ticarət Maliyyə İttifaqı (International Islamic Trade Finance Corporation) 2005-ci ildən Ticarət kreditləri sahəsi üzrə fəaliyyət göstərir.

Bankın pul vahidi dinardır. Bankın kapitalları üzv dövlətlərin hesabına toplanır. Bankın sərəncamında olan kapitalı - 30 mlrd. İslam dinarına bərabərdir. Bankın imzalanmış kapitalı - 15 mlrd. İslam dinarına bərabərdir. Bankın nizamnamə kapitalı 2 mlrd. SDR məbləğində müəyyən edilmişdir. Qeyd edək ki, bu məbləğ bankın üzvü, İslam konfransının iştirakçısı olan ölkələr tərəfindən tamamilə ödənilmişdir [2, 133]. Bankın hesablaşma vahidi olan İslam dinarının dəyəri 1 SDR-ə bərabərdir.

Dövlətimiz öz müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikalarından ilk olaraq İƏT-ə üzv olmaq barədə müraciət etmiş və 1991-ci ilin dekabrında üzv seçilmişdir. İƏT istər zirvə konfranslarında, istərsə də Xarici İşlər Nazirləri Konfranslarında Ermənistan təcavüzünü pisləmiş və Azərbaycanın siyasi marağına uyğun qətnamələr qəbul etmişdir. Ölkəmizə zəruri yardımın göstərilməsi məqsədilə İƏT çərçivəsində Azərbaycan Respublikasına İqtisadi Yardım haqqında bir neçə Qətnamə qəbul edilmişdir. 2006-cı ilin iyun ayında Təşkilatın Xarici İşlər Nazirlərinin 33-cü Konfransı Bakıda keçirilmişdir. 2010-cu ildə İƏT-in qurumu olan İslam İnkişaf Bankının Müdirlər Şurasının 35-ci toplantısı Bakıda keçirilmişdir.

Azərbaycanda islam bankçılığının inkişaf etdirilməsi üçün müvafiq addımlar atılır və ölkəmizdə fəaliyyət göstərən bir çox banklar və kredit təşkilatları bu sahəyə xüsusi maraq göstərir. Lakin bu sahənin geniş inkişafı haqqında, yalnız bank qanunvericiliyinə əlavə və dəyişiklik edildikdən sonra danışmaq olar. ABB islam bankçılığı departamentinin də, fəaliyyətinin əsas istiqaməti bu sahəyə yönəlmişdir ki, İslam İnkişaf Bankı, AR Mərkəzi Bankı və digər dövlət strukturları ilə birgə hüquqi və iqtisadi cəhətdən əsaslandırılmış qanuna əlavə və dəyişikliklər layihəsinin hazırlanmasına dair işlər aparılmaqdadır. Layihə hazır olandan sonra Azərbaycan hökumətinə təqdim olunacaq.

Hal-hazırda Azərbaycanda yalnız islam bankçılığı prinsipləri əsasında fəaliyyət göstərən banklar mövcud deyil, bir daha qeyd edirik ki, Azərbaycan bank qanunvericiliyi buna imkan vermir. Yalnız hər hansı bankın nəzdində İslam Pəncərəsi və yaxud departament formasında fəaliyyət göstərmək mümkündür bu şərtlə ki, istisna bir neçə islam bank məhsullarını tətbiq etmək olar, hansılar ki, ölkənin bank qanunvericiliyi ilə ziddiyyət təşkil etmir. Hazırda yalnız Azərbaycan Beynəlxalq Bankı islam bankçılığı məhsul və xidmətləri bazarda təqdim edir. Belə ki, Azərbaycan Beynəlxalq Bankının nəzdində İslam Bankçılıq departamenti fəaliyyətə başlayıb.

Son zamanlar İslam Bankçılığı haqqında müxtəlif insanlar və bu sahədə özlərini mütəxəssis hesab edənlər tərəfindən bir çox fikirlər səslənir. Yalnız bu fikirlər İslam Bankçılığının xüsusiyyətlərini əks etdirmir. Bu sahə üzrə ekspert olmaq üçün bank sahəsini yaxşı bilməklə yanaşı, İslam Bankçılıq üzrə xüsusi təhsil almaq tələb olunur. Əfsuslar olsun ki, həmin ixtisas üzrə təhsili Azərbaycanın elm-tədris ocaqlarında mövcud deyil və bu sahənin mütəxəssisi olmaq istəyən insanlar məcbur olaraq xarici təhsil ocaqlarından bilikləri əldə edirlər. Bu səbəbdən ölkədə İslam Bankçılığı sahəsində mütəxəssis çatışmazlığı hiss olunur və banklar bu sahəyə maraq göstərsələr də, mütəxəssis çatışmazlığı problemi ilə üzləşir. Ümidvarıq ki, yaxın gələcəkdə bu problem də öz həllini tapacaq və İslam Bankçılığı Respublikamızda inkişaf etdirilərək sahibkarlar üçün daha yaxşı investisiya mühiti yaradacaq.

Keçən il Azərbaycan Beynəlxalq Bankı (ABB) Avropa bankları arasında ilk dəfə islam bankçılığı tələblərinə cavab verən "Qiblə" kartını təqdim edib. Kartın dəyəri 40 manat təşkil edir.

Bu debet kart "Master Card Platinum"la birgə buraxılıb. O, qeyri-adi dizaynla hazırlanıb və Məkkənin istiqamətini göstərən elektron kompasla təchiz olunub. Onun köməkliyi ilə kart sahibləri hesablarından vəsaitləri nağdılaşdıra, o cümlədən müxtəlif məhsullar və xidmətlərə görə ödəniş edə bilərlər.

"Qiblə" kartı debet kart kimi buraxılacaq, lakin həm də bank tərəfindən verilən borc limiti kimi də istifadə oluna bilər. Limitin müddətinin uzadılması borc ödənişi müddətinin sonunda kart sahibi ilə müzakirə olunur. Kart sahibi tərəfindən qaytarılan borc kartın balansına oturur və bununla da borc limiti bərpa olunur.

Azərbaycan müsəlman ölkəsi olduğundan və bir neçə İslam təşkilatları ilə əlaqələrinə görə Azərbaycanda faizsiz bankların qurulması və bu sahənin yaradılması üçün ilkin bazanın qurulması vacib məsələdir. Ölkəmizdə faizsiz bankçılıq, demək olar ki, yox səviyyəsindədir. Buna baxmayaraq, İİB ölkəmizdəki bir sıra banklara (Turanbank, Azərbaycan Beynəlxalq Bankı, Rabitəbank, Unibank, Bank Standart, Kövsərbank, Əmrahbank) öz dəstəyini vermişdir və bir sıra bank və təşkilatlar (Kövsər Bank, Beynəlxalq Xəzər İnvestisiya Şirkəti) islami bank prinsiplərinin bir qismini özündə əks etdirmişdir. Kövsər Bank əvvəllər kommersiya bankı kimi yaradılmış, sonralar nizamnaməsi dəyişdirilərək İslam Bankçılıq metodları ilə işləməyə başlamışdır. Bu MDB məkanında qurulan ilk banklardandır. Xəzər Beynəlxalq İnvestisiya Şirkəti isə İİB-nin təklifi ilə Dövlət İnvestisiya Şirkəti ilə birgə yaradıldı [14].

Azərbaycanda bu cür şirkətlərin açılması üçün yararlı olan mühitə diqqət çəksək, görərik ki, faizsiz bankçılıq 70-ci illərin sonunda İran körfəzi ölkələrində yaranmışdı. Bunun səbəbləri isə neftin qiymətində olan sürətlə artım və həmin ölkələrin də neft ölkəsi olmağı ilə bağlı idi. Çünki dəyişən bazarda artıq yeni sistemlə işləyən banklara ehtiyac duyulurdu. Əlavə edək ki, bu ölkələr müsəlman ölkəsi olduğu üçün onların yaradılmasının digər səbəbi də bu oldu. Azərbaycana nəzər yetirdikdə eyni ilə bu bankların yaradılması üçün lazım olan o prinsipləri asanlıqla görmək olur:

- müsəlman ölkəsi olmağımız və üstəgəl müsəlmanların çoxluğu;
- neft ölkəsi olmağımız və neftin qiymətindəki dəyişmələr;
- beynəlxalq bazarlara açılımın sürətlənməsi və sənayeləşmənin inkişafı.

Bu ölkələrin etdiklərini biz də edə bilərik. Bir düşünək, Azərbaycanda bu gün irili-xırdalı 50-ə yaxın bank fəaliyyət göstərir. Bu bankların yaradılması mümkündürsə, o zaman faizsiz bankçılığın da yaradılması üçün elə də çətin bir məqam yoxdur. Bu sahədə hətta qardaş ölkə olan Türkiyə bankları ilə də əməkdaşlıq etmək olar.

**ƏDƏBİYYAT**

1. Əliyev Ə.İ., Aslanov E.Z. Beynəlxalq turizm hüququ. Bakı: 2011, 475 s.
2. Sadıqov M.M., Balayeva E.Ə., Həmişəyeva Ş.Ü. Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi. Bakı: 2003, 131 s.
3. Samir Azəri. Faizsiz İslam Bankları. Bakı: 2009, 265 s.
4. Ahmet Ertürk. Albaraka Türk Yayınları, No:17.
5. Doğa Erdoğan. Katilim bankaciliği ve Türk ekonomisine katkilari. İstanbul: 2011, 111 s.

6. Fahri Öztop. Özel Finans Kurumlarının Vergilendirilmesi. Dokuz Eylül Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2006, 25 s.
7. Murat Çizakça. İslam Dünyasında ve Batı'da İş Ortaklıkları Tarihi. Tarih Vakfı Yurt Yayınları, İstanbul: 1999, 93 s.
8. Rüveyde Ebru Türkmenoğlu. Katılım Bankacılığı ve Türkiye'deki Finansal Yapı. Kırıkkale Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2007, 25 s.
9. Sudi Apak. Uluslararası Finansal Teknikler. Bilim ve Teknik Yayınevi, 2. Baskı, İstanbul: Nisan 1995. 231 s.
10. Vural Günal. Bankacılık Hukukuna İlişkin Esaslar. Galatasaray Üniversitesi Hukuk Fakültesi Yayınları. 2008, 345 s.
11. Colin Firer. Money and Islam-Muslims Torn Between Belief And Finance, In Justice, Law, Malaysia on February 7, 2012, 78 p.
12. http://az.islam.az/news/a-1704.html/ 25.06.2010
13. http://banker.az/aze/index.php/mqallr/maliyy/530-faizsiz-bankclq-anlays
14.http://www.academia.edu/5328697/I_International_Scientific_Conference_of_Young_Researchers \\ 09.03.2015

## БАНКОВСКОЕ ДЕЛО В ИСЛАМСКОЙ ФИНАНСОВОЙ СИСТЕМЕ

**Л.Р.ФАРЗАЛИЕВА**

### РЕЗЮМЕ

В данной статье рассматриваются соответствующие меры, предпринимаемые для развития исламского банковского дела в Азербайджане, а также заинтересованность в данной области некоторых банков и кредитных организаций, осуществляющих деятельность на территории страны. Также обсуждается вопрос необходимости внесения поправок и дополнений в существующее законодательство в банковской сфере с целью ее дальнейшего развития. Помимо этого, для того чтобы стать экспертом в данной области, наряду со знанием банковского дела, необходимо специальное образование по исламскому банковскому делу и создания специализированных учебных заведений.

**Ключевые слова:** исламская финансовая система, беспроцентные финансовые институты, исламское окно в банковском секторе

## BANKING IN ISLMAIC FINANCIAL SYSTEM

**L.R.FARZALIYEVA**

### SUMMARY

This article deals with relevant steps taken for the development of Islamic banking in Azerbaijan and interests of a range of banks and credit institutions operating in our country in this field. Necessity of additions and amendments in banking legislation for the development of this field is stressed. It is acknowledged that for becoming a professional in this field, besides comprehensive knowledge in banking, specialized education in Islamic banking is important and there is necessity for opening relevant educational-teaching institutions.

**Key words:** Islamic financial system, interest-free loans, financial institutions, Islamic window in banking